**"Təsdiq edirəm"**

Azərbaycan Respublikasının
Səhiyyə Nazirinin müavini

**_______________ Nigar Əliyeva**

”___” yanvar 2012-ci il

# İmmunoprofilaktika üzrə məlumat təqdim edilməsi üzrə inzibati reqlament

## 1. Ümumi müddəalar

**1.1.Elektron xidmətin adı:** İmmunoprofilaktika üzrə məlumat təqdim edilməsi

**1.2.Elektron xidmətin məzmunu:** immunlaşdırma təqvimi haqqında vətəndaşlara məlumatın çatdırılması.

**1.3.Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

- “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci bəndi;
- “Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsi;
- “2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 225 nömrəli Qərarı.

**1.4.Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**1.5.Elektron xidmətin digər icraçıları:** Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi

**1.6.Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Bu sahədə göstərilən elektron xidmət tam avtomatlaşdırılmışdır.

**1.7.Elektron xidmətin icra müddəti:** dərhal.

**1.8.Elektron xidmətin göstərilməsinin nəticəsi:** İmmunoprofilaktika üzrə vətəndaşların məlumatlandırılması.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1.Elektron xidmətin növü:** informativ

**2.2.Elektron xidmət üzrə ödəniş:** ödənişsiz

**2.3.Elektron xidmətin istifadəçiləri:** hər bir şəxs

**2.4.Elektron xidmətin təqdim olunma yeri:** Bu sahədə elektron xidmət aşağıdakı internet ünvanı vasitəsilə təqdim edilir: http://sehiyye.gov.az/immunoprofilaktika_uzre_veb_resurs.html

**2.5.Elektron xidmət barədə məlumatlandırma:**

- http://sehiyye.gov.az/immunoprofilaktika_uzre_veb_resurs.html
- email: office@e-health.gov.az
- tel.: 012 431-38-28

**2.6.Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** Elektron xidmətin göstərilməsi üçün heç bir sənəd tələb olunmur.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1.**Xidmət istifadəçilər üçün daim açıqdır və istifadəsində hər hansı qaydada məhdudiyyət yoxdur.

**3.2.Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Xidmətin yerinə yetirilməsinə nəzarəti Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırlması Mərkəzi həyata keçirir. Xidmətin göstərilməsi ilə bağlı yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi üçün bu reqlamentin 2.5-ci bəndində göstərilmiş əlaqə vasitələrindən istifadə oluna bilər.